

# “Qarabağ Zəfəri bizim tariximizdə əbədi qalacaq”

***Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində xalqımız tərəfindən İkinci Qarabağ müharibəsinin, eləcə də, işğal dövründə törədilən vəhşiliklərin heç vaxt unudulmayacağını bildirib. Çünki müzəffər silahlı qüvvələrimizin misilsiz şücaəti, fədakarlığı ilə ölkəmiz 44 gün ərzində haqq-ədaləti bərpa edib, otuz il tapdaq altında saxlanılan torpaqlarımızı düşməndən təmizləyib, əzəli-əbədi ərazilərimiz hesabına ermənilərin “böyük Ermənistan” yaratmaq xülyalarına birdəfəlik son qoyub, qəsbkara öz yerini göstərib. Bununla da qəhrəman ordumuz BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsini uğurla yerinə yetirib və tarixə “Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi” adı ilə düşən mürəkkəb bir etno-siyasi qarşıdurmanı aradan qaldırıb. Beləliklə, İkinci Qarabağ müharibəsində Ermənistanın biabırçı məğlubiyyəti ilə Cənubi Qafqazda bu qlobal münaqişəni sona çatdırıb.***

Bu məqamda onu da qeyd edək ki, Vətən müharibəsinə qədər “Dağlıq Qarabağ münaqişəsi” məqsədli şəkildə “dondurulmuş” hala gətirilmişdi və uzun müddət elə belə də saxlanılırdı. Əslində, məqsəd də elə bu idi. Yəni, düşmən işğalçı siyasət yürütməklə, qəsbkarlığını davam etdirməklə daim demokratiyadan, insan haqlarından dəm vuran havadarlarının dəstəyi ilə yaranmış “status-kvo”nu ATƏT-in Minsk qrupunun nəzarəti altında əbədiləşdirmək istəyirdi.

*(ardı 4-cü səhifədə)*

# “Qarabağ Zəfəri bizim tariximizdə əbədi qalacaq”

*(əvvəli 1-ci səhifədə)*



Ermənistan da bu cəzasızlıq şəraitində, hətta ərazisini “hərbi uğurlarla” bir qədər də genişləndirib Qarabağ məsələsinə nöqtə qoymağı düşünürdü. Amma, nəhayət, səbr kasası daşan Azərbaycan 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hücununa əks-həmlə əməliyyatları ilə cavab verməklə güc-qüdrətini göstərdi, ay yarım ərzində düşməni təslim aktını imzalamağa məcbur etdi. Bununla da ölkəmiz acgöz və xain qonşu Ermənistanı cəzalandırmaqla, beynəlxalq qanun çərçivəsində uzun bir dövr işğal altında saxlanılan ərazilərini düşməndən təmizlədi, özünün ərazi bütövlüyünü reallaşdırdı, bir milyondan çox məcburi köçkünün öz doğma torpaqlarına qayıdışını şərtləndirdi.

İkinci Qarabağ müharibəsi bizə dost-düşmənimizi tanıtdı, kimin kim olduğunu göstərdi. Savaşın ilk günündən sonunadək haqq-ədalətin tərəfində dayanan dost, qardaş ölkələrlə bərabər, işğalçıya dəstək verən, ona havadarlıq edən, onu silahlandıran dövlətlər üzə çıxdı. Lakin heç bir təhdid, heç bir hədə-qorxu xalqımızı tarixi ədalət uğrunda apardığı mübarizədən, qədim yurd yerlərimizi geri almaqdan çəkindirmədi, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz hər gün qəhrəmanlıq tarixi yazdı, hər gün parlaq qələbəyə imza atdı. Dövlətimizin başçısı Vətən müharibəsindən sonrakı çıxışlarının birində həmin günləri bir daha xatırladaraq dedi: “Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər. Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi...”.

Vətən müharibəsində Azərbaycanın haqq mübarizəsinə kölgə salmağa cəhd göstərən məlum qüvvələr isə Ermənistanın torpaqlarımızın 20 faizini 30 ilə yaxın bir dövrdə işğal altında saxlayanda da susdular, münaqişənin həllinin uzanmasında maraqlarını gizlətmədilər, ən yaxşı halda bu ədalətsiz məsələyə ikili standartlarla yanaşdılar.

Sirr deyil ki, işğal dövründə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu öz vəzifəsinin öhdəsindən gələ bilmədi. Hətta bir çox hallarda bəzi həmsədrlərin ermənilərin tərəfini saxlamaları, işğal faktına göz yummaları açıq-aydın nəzərə çarpdı. Bu isə işğalçının daha da əl-qol açmasına, qəsbkarlıq iştahasının daha da güclənməsinə gətirib çıxardı, “yeni ərazilər uğrunda yeni müharibə” şüarının səsləndirilməsini şərtləndirdi. Beləliklə, düşmən cəzasız qaldığını görüb daha da azğınlaşdı, bölgənin təhlükəsizliyinə böyük təhlükə yaratmaqdan çəkinmədi. Nəticəsiz danışıqlar, vasitəçilərin əhəmiyyətsiz, əksər hallarda isə ikili standartlara söykənən bəyanatları isə prosesi, necə deyərlər, ölü nöqtədən tərpətməyə imkan vermədi. Azərbaycan isə əgər belə demək mümkünsə, dünya birliyinin bu haqsızlıq qarşısında susqunluğundan, laqeydliyindən bezdi, Qarabağın işğalına son qoymaq qərarını gecikdirmədi. Ermənistanın “yeni ərazilər uğrunda yeni müharibə” iddiası ilə ölkəmizə növbəti hücumuna cavab vermək qərarını qətiləşdirdi.

Beləliklə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 2020-ci il sentyabrın 27-də Qarabağda Ermənistan silahlı qüvvələrinin təxribatlarına qarşı başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək düşmən həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verdi, 5 şəhər, 4 qəsəbə və 300-ə yaxın kənd işğaldan azad edildi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəklik geri qaytarıldı.

Noyabrın 10-da isə Azərbaycan, Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalandı. Bu bəyanata əsasən, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana təhvil verildi. Bununla da ermənilərin “Böyük Ermənistan” və “Dağlıq Qarabağ respublikası” xülyalarına birdəfəlik son qoyuldu.

Vətən müharibəsi Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu siyasi-hərbi mübarizədən qalib çıxdı. Ordumuz uğurlu əməliyyatları ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində xalqımızın birliyi, qalib Prezidentinə və qəhrəman ordumuza inamı bu tarixi qələbəni reallaşdırdı, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

İkinci Qarabağ müharibəsində ordumuz düşmənin 30 il ərzində qurduğu istehkamları qısa müddətdə yararaq, misilsiz qəhrəmanlıqlar nümayiş etdirdi. Mədəniyyət paytaxtımız Şuşa uğrunda gedən döyüşlərdə isə silahlı qüvvələrimiz dünya hərb tarixində görünməyən fədakarlıq göstərdi, bu qala-şəhəri süngü-bıçaqla düşməndən təmizlədi.

Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistandan fərqli olaraq, ancaq düşmənin döyüşən ordusu ilə üz-üzə gəldi, dinc əhaliyə qarşı silah işlətmədi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bununla bağlı dedi: “Biz şəhidlərimizin xatirəsini daim öz qəlbimizdə yaşadacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qəhrəmanlığı və minlərlə, on minlərlə Azərbaycan əsgər-zabitinin qəhrəmanlığı, peşəkarlığı sayəsində biz işğala son qoyduq, doğma torpaqlarımızı azad etdik, tarixi zəfər çaldıq və bu Zəfər bizim tariximizdə əbədi qalacaq. Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimin tanınır. Onu da bildirməliyəm ki, bu il Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, müharibə dövründə bütün müharibə qaydalarına riayət etməyimiz və müharibədən sonra özümüzü ləyaqətlə aparmağımız idi”.

Artıq Vətən müharibəsindən bir il ötür. Döyüşlərdən keçən müddətdə ölkəmiz siyasi şərtləri diktə edir, regionun geosiyasi mənzərəsini sürətlə dəyişir, Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanata əsaslanaraq, bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatı yaradır. Respublikamız Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin xaraba qoyduğu yaşayış sahələrini sürətlə bərpa edir, eyni zamanda, Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm layihələr reallaşdırır. Qısa müddət ərzində istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı və tikilməkdə olan Zəngilan və Laçın hava limanları da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Ordu quruculuğu, ölkəmizin müdafiə qabiliyyəti və milli təhlükəsizliyinin daha da gücləndirilməsi Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən bu gün də qarşıya qoyulan əsas vəzifələrdən biridir. Buna görə hazırda silahlı qüvvələrimizin müasir hərbi texnika və silah-sursatla təchizatı, təhlükəsizliyin təmin olunması məqsədilə zəruri hərbi infrastrukturun yaradılması, hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin gerçəkləşdirilməsi daim diqqətə saxlanılır. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində dediyi sözlər də bunun bariz ifadəsidir: “Biz hərbi gücümüzü bundan sonra da artıracağıq. 2021-ci ildə də bu istiqamətdə əməli addımlar atılıb, yeni silahlar, texnikalar alınıb və alınacaqdır. Eyni zamanda, hərbi birləşmələrimizin hazırlıq işinə də böyük əhəmiyyət verilir… Bu il artıq Azərbaycanda yeni hərbi birləşmə yaradılmışdır - Komando Qüvvələri. Bu Komando Qüvvələri istənilən hərbi vəzifəni icra etməyə hazırdırlar, onların sayı durmadan artır və artacaq. Beləliklə yeni çevik, peşəkar və çox böyük imkanlara malik olan silahlı birləşmənin yaradılması onu deməyə əsas verir ki, biz hər an öz torpaqlarımızı, öz sərhədlərimizi qorumağa hazır olmalıyıq. 2021-ci ildə Ermənistan-Azərbaycan sərhədində baş vermiş bəzi insidentlər onu göstərdi ki, Azərbaycan üstünlüyü tam öz əllərində saxlayır”.

***“Xalq qəzeti”***